**Offşorlar 21 trilyon dollar vəsaiti gizlədir**

İyul ayının 22-də Tax Justice Network (Vergi Ədaləti Şəbəkəsi) adlı qeyri-hökumət təşkilatı beynəlxalq vergitutma və offşor yurisdiksiyaları problemlərinə həsr olunmuş növbəti hesabatını yaymışdır. Sənəddə offşor zonaların bank və maliyyə institutları tərəfindən hazırda 21 trilyon pul vəsaitinin gizlədildiyi qeyd olunur. Ekspertlərin fikrincə, offşor mexanizmləri vasitəsilə vəsaitlərin gizlədilməsi dünya iqtisadiyyatına mənfi təsir göstərir. Belə bir misal göstərilir ki, əgər gizlədilmiş vəsaitlər vergiyə cəlb olunsa, hökumətlər öz büdcələrinə əlavə ən azı 280 milyard dollar vəsait cəlb edə bilərdilər. Hesabat müəlliflərinə görə, bu gün dünyada vergidən yayındırılan vəsaitlər İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan hökumətlər tərəfindən inkişaf etməkdə olan ölkələrə yardım üçün həyata keçirilən beynəlxalq proqramlara xərclədikləri vəsaitdən iki dəfə artıqdır.